Seçkilərlə bağlı maarifləndirici lövhələr yerləşdirildi

Yazan
05.08.13 18:26 -



Mərkəzi Seçki Komissiyası (MSK) Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı bəzi maarifləndirici plakatların yerləşdirilməsinə başlayıb.

MSK-dan bazar ertəsi bildiriblər ki, hazırda yayılan maarifləndirici plakatlarda seçki hüququ olan şəxsləri adlı siyahıda öz adlarını yoxlamağa çağırır.

Komissiyadan bildiriblər ki, seçki qanunvericiliyi ilə müəyyən olunmuş vaxtlarda digər maarifləndirici plakatlar, əyani vasitələr yayılacaq.

Qeyd edək ki, MSK prezident seçkilərinin oktyabrın 9-da keçirilməsi barədə qərar qəbul edib. Sonuncu prezident seçkiləri 2008-ci il oktyabrın 15-də keçirilib. Azərbaycanda hər beş ildən bir prezident seçkiləri keçirilir.